**Respublika**. - 2024.- 14 noyabr. - № 250. - S. 1,11.

# Dünya Bakıya toplaşıb

## Planetimizin gələcəyi Azərbaycanda müzakirə edilir

**Mustafa Kamal**

**Azərbaycan dünyanın ən böyük, həm də mahiyyətinə görə ən mühüm tədbirinə ev sahibliyi edir.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi qərarının verilməsindən sonra ötən bir il ərzində bu istiqamətdə mühüm tədbirlər görülüb, hazırlıqlar ən yüksək səviyyədə aparılıb. Artıq bu mötəbər tədbir noyabrın 11-dən öz işinə başlayıb və yüksək səviyyədə keçirilir.

"Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimində deyib. Dövlət başçısı bildirib ki, bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitində Azərbaycan Prezidenti İlham Əliyev, BMT-nin Baş katibi Antonio Quterreş çıxış ediblər. Sammitdə NASA astronavtlarının beynəlxalq kosmik stansiyadan xüsusi videomüraciəti nümayiş olunub.

Bəzi avropalı siyasətçilər və ya dünya erməni diasporuna bağlı şəxslər COP29 sessiyasına qarşı qərəzli fəaliyyətdədirlər. Onlar anlamırlar ki, bu, Birləşmiş Millətlər Təşkilatı (BMT) nəzdində keçirilən konfransdır. COP29-da müzakirə olan məsələlər qlobal problemlərdir. Bu, təkcə Azərbaycan və onun sərhədləri ilə bağlı deyil, ümumbəşəri problemlərlə bağlı konfransdır. Azərbaycan BMT-nin COP29 tədbirinə ev sahibliyi etməklə dünyaya örnək oldu. COP29 tədbirinin yüksək səviyyədə təşkil olunması onu göstərir ki, rəsmi Bakı diplomatik qələbə çalmaqla yanaşı, anti-Azərbaycan qüvvələrini ağır məğlubiyyətə uğratdı. Azərbaycanın COP29 kimi böyük tədbirə ev sahibliyi etməsi onun beynəlxalq aləmdə nüfuzunu daha da artırdı.

Planetimizin gələcəyi Azərbaycanda müzakirə edilir. Prezident İlham Əliyevin dediyi kimi, COP29 beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana ehtiramın və dəstəyin göstəricisidir: "COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir". Dünyanın bütün güc mərkəzləri Avropa İttifaqı, BMT-nin baş katibi, Böyük Britaniyanın baş naziri, Asiya və Afrikadan olan görkəmli siyasətçilər, dövlət başçıları və minlərlə qonaq COP29 sessiyasına təşrif buyurublar.

Dünyanın aparıcı media orqanlarının da diqqət mərkəzində olan COP29-un elə birinci günündə əldə olunan ilk böyük uğur-karbon kreditlərinin yaradılması standartları üzrə konsensusa nail olunması onu göstərir ki, bu qlobal iqlim sammiti dünya üçün əhəmiyyətli qərarların qəbul edilməsi ilə nəticələnəcək. Azərbaycanın neft ölkəsi olaraq COP29-a ev sahibliyi etməsini tənqid edənlərin arqumentləri də əsassız və məntiqsizdir. Azərbaycan neft və qaz istehsalçısıdır və enerji sektoru ölkə iqtisadiyyatında mühüm yer tutur. Ancaq ölkə qlobal təmiz enerji və karbon emissiyasının azaldılması istiqamətindəki trendlərlə uyğunlaşmağa, bərpaolunan enerji mənbələrinə, məsələn, külək, günəş və hidroenerjiyə investisiya qoymağa başlayıb. COP29-un qərarları bu keçidi sürətləndirir. İnkişaf edən ölkələr, o cümlədən Azərbaycan iqlim dəyişmələrinə qarşı tədbirlər üçün maliyyə dəstəyi axtarır. COP29 Azərbaycan üçün Yaşıl İqlim Fondu və ya digər beynəlxalq maliyyə mənbələri vasitəsilə iqlim maliyyəsinə çıxışı təmin edə bilər. Bu maliyyə dəstəyi iqlimə uyğunlaşma layihələrinin həyata keçirilməsi üçün çox önəmli olacaq, xüsusilə kənd təsərrüfatı, su resursları və sahil zonaları kimi həssas sahələrdə. Əlavə olaraq, Azərbaycan, Orta Asiya və Xəzər regionunda digər ölkələrlə birgə ətraf mühit problemlərini həll etmək üçün regional əməkdaşlıq imkanlarından yararlana bilər.

Azərbaycan da daxil olmaqla, bir çox ölkə artan temperatur, quraqlıqlar və qeyri-bərabər yağıntı kimi iqlim təhlükələri ilə üzləşir. COP29-da iqlimə uyğunlaşma ilə bağlı aparılan müzakirələr Azərbaycanın uyğunlaşma strategiyasını gücləndirməsinə səbəb olacaq. Bu, iqlimlə əlaqəli təhlükələrə qarşı infrastrukturun inkişaf etdirilməsi, su ehtiyatlarının idarə olunması və fəlakətə hazırlıq tədbirlərinin

artırılmasını əhatə edəcək. Azərbaycan artıq iqlim davamlılığı məsələlərinə, xüsusilə kənd təsərrüfatı və su idarəçiliyi sahələrinə diqqət ayırır. COP29 daha effektiv uyğunlaşma tədbirləri üçün yeni yanaşmalar və çərçivələr yaradacaq.

Qlobal iqlim dəyişmələri ilə mübarizə istiqamətində Çərçivə Konvensiyasının iştirakçılarının əsas məqsədi bəşəri niyyətlər naminə səyləri birləşdirmək, bu sahədə mümkün töhfələrin verilməsi üçün bərabərsizliklər, qarşılıqlı anlaşılmazlıqlar başda olmaqla, çoxsaylı maneələri aradan qaldırmaqdır. Azərbaycan dünyada gedən iqlim dəyişmələri proseslərinə həssas şəkildə yanaşır. Ölkəmiz qlobal ekoloji problemlərə şifahi çağırışlarla yox, əməli yanaşması ilə seçilir. Təsadüfi deyil ki, Azərbaycan 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetdən birini "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirib. Prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində əməli işlər görülür. Azərbaycan 1990-cı illə (baza ili) müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını qarşıya məqsəd qoyub. Bununla yanaşı, elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəf kimi müəyyənləşdirib.

Azərbaycan çətin geosiyasi şəraitə və Qərb ölkələrinin davamlı təzyiqlərinə baxmayaraq, iqlim dəyişmələri ilə mübarizə üzrə qlobal səylərə real töhfə verməyə çalışır. Ölkədə artıq təmiz texnologiyalar tətbiq edilir və bərpaolunan enerji mənbələri inkişaf etdirilir ki, bu da onun beynəlxalq iqlim sazişlərinə sadiqliyini vurğulayır. Azərbaycan bu mühüm hadisənin siyasiləşdirilməsini aradan qaldıraraq qlobal ekoloji problemlərlə daha səmərəli mübarizə aparmağa imkan verəcək konstruktiv həllər təklif etməyə və dialoqa hazırdır.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer Prezident İlham Əliyevi COP29-un Azərbaycanda keçirilməsi və ölkəmizin bu tədbirə sədrliyi münasibətilə təbrik edib. İqlim dəyişmələri məsələlərinin Britaniyanın gündəliyində prioritet olduğunu deyən Baş nazir Azərbaycanın qlobal iqlim dəyişmələri ilə mübarizəyə verdiyi töhfənin təqdir olunduğunu vurğulayıb. Dövlət başçısı COP29-un təşkili ilə əlaqədar vaxtın az olmasına baxmayaraq, qısa müddət ərzində bütün təşkilati işlərin həyata keçirildiyini deyib. Prezident İlham Əliyev bu tədbirin mahiyyəti üzrə olan danışıqlar prosesində də artıq irəliləyişlərin olduğunu bildirib. Bu xüsusda, Paris razılaşmasının 6-cı bəndi üzrə əldə olunmuş irəliləyişləri müsbət addım kimi qiymətləndirib.

Bakıda keçirilən COP29 sammitində Belarus Prezidenti Aleksandr Lukaşenko iqlim dəyişmələri ilə mübarizə üçün qlobal fəaliyyət təkliflərini səsləndirib. Dövlət başçısının qeyd etdiyinə görə, bu və digər istiqamətlər beynəlxalq səylərin birləşməsini tələb edir. "Bu, sözdə deyil, əməldə olmalıdır. Sözdən hərəkətə keçməyin vaxtıdır. Ödəməli olanlar isə ödəməlidirlər, öz kabinetlərində oturmamalıdırlar", - deyə Belarus lideri vurğulayıb. Lukaşenko bildirib ki, iqlim dəyişib və bu, artıq obyektiv reallıqdır.

BMT-nin Baş katibi Antonio Quterreş də COP29 Liderlər Sammitinin açılışında bildirib ki, iqtisadi zərurət hər yeni bərpaolunan enerji mənbələrinin tətbiqi, hər innovasiya və hər qiymət azalması ilə daha aydın və inandırıcı olur. Keçən il ilk dəfə olaraq elektrik şəbəkələrinə və bərpaolunan enerji mənbələrinə investisiyaların həcmi qalıq yanacağa çəkilən xərcləri üstələyib. Demək olar ki, hər yerdə günəş və külək enerjisi yeni və ən ucuz elektrik enerjisi mənbələrinə çevrilir. İqlim maliyyəsi ilə bağlı razılaşmanın əhəmiyyətindən danışan BMT rəsmisi bildirib ki, COP29 iqlim maliyyəsi ətrafında divarları dağıtmalıdır. İnkişaf etməkdə olan ölkələr Bakını boş əllə tərk etməməlidir. Razılaşma mütləqdir. Və mən əminəm ki, bu razılaşma əldə olunacaq.